# Vətəni işıqlandıran...

Bəzi məfhumlar və dəyərlər vardır ki, insan oğlu onun həqiqətini dərk edə bilmir. Bəlkə bu dəyərlər barəsində əsər, hekayə, roman, şeir və qəzəllər yazıla bilər, ancaq mahiyyəti tam dərk edilə bilməz. Belə dəyərlərin başında “şəhidlik” məfhumu gəlir. Mahiyyəti etibarilə fərqli şəkildə təzahür etsə də, Allah dərgahındakı dəyərləri və mükafatları eynidir. Çünki İslam ədəbiyyatında bütün növ şəhidliklər eyni qəbul edilmişdir.

İnsan dünyaya göz açanda ilk olaraq anasını görür, ilk qədəmlərini Vətən torpağında atır və torpaq sevgisinin hərarətini ana nəfəsi kimi duyur. Bu hərarət zaman keçdikcə o qədər artır ki, insan bir an belə vətənsiz yaşaya bilmir. Biz Vətən sevgisinin odunu, ana yurdun doğmalığını, əvəzolunmazlığını hələ uşaq ikən duyub, hiss edirik. Vətən bizim qibləgahımız,səcdəgahımız olur!

Vətənə uzanan əl sanki ürəyimizi yerindən söküb çıxarmaq üçün sinəmizi yaran süngü kimi əzab verir insana. Bu zaman düşmənə olan sonsuz nifrətimiz yenilməzlik zirehi olub vücudumuzu sararaq qisas almaq arzumuzu alovlandırır.

Hər birimiz yəqin ki, heç gözləmədiyimiz anda başlanan müharibəni hələ də unuda bilmirik və illər keçsə də, unuda bilməyəcəyik. Çünki o gündən sonra həyatımız sözün əsl mənasında tamamilə dəyişdi. Neçə-neçə evin ocağı söndü.



“Qəbələyə şəhid gəlir”-necə də ağır bir cümlədir, ilahi... Hər kəsin qəlbində bir qorxu, dilində bir sual var idi- “Kimdi şəhid? Görəsən mənim oğlum deyil?”. Nəhayət, bilinir.

Bəli, o, Qəbələnin Vətən Müharibəsində ilk şəhidi oldu. Həm də 19 yaşında... 2020-ci il 27 sentyabr tarixində, axşam saatlarında bütün olanlardan xəbərsiz olan Yaşar ataya zəng gəlir və sadəcə bayıra çıxması söylənilir. Ata bayıra çıxdıqda insanların toplaşdığını görür və oğlunun şəhid xəbərini eşidir. Atanın böyük oğlu hərbçi, kiçik oğlu İsmayıl isə əsgər idi. “Hansı oğlumdur?”- deyə, soruşur.

**Kim idi Qəbələnin ilk şəhidi?**

Qurbanov İsmayıl Yaşar oğlu, 2001-ci il mart ayının 6-da Qəbələ rayonu Böyük Pirəli kəndində anadan olub. Orta təhsilini Böyük Pirəli kənd məktəbində almışdır. Daha sonra təhsilini Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində davam etdirmişdir. İsmayıl 2019-cu ilin iyul ayında hərbi xidmətə yollanır. Ailəsi, dostları onu hərbi xidmətə toy-büsatla yola salır.

İsmayıl necə uşaq olub? - deyə, soruşduqda isə verilən cavablar hər biri müsbət olur. İsmayıl kənddə balacadan tutmuş böyüyə qədər hər kəsin sevimlisi olub. O, hər kəsin köməyinə çatar, bacardığı hər işdə insanların əlindən tutmağa çalışardı. İsmayıl səmimi, mehriban davranışları, xarakteri ilə yaşının az olmasına baxmayaraq, hər kəsin qəlbində xüsusi yer tutmuşdu. Zəhmətsevər övlad olmaqla yanaşı, həm də valideynlərinin sonbeşiyi idi.

O, ailəsi ilə son dəfə sentyabr ayının 26-da danışır. Valideynlərinə “Narahat olmayın, az qalıb tezliklə gələcəm. Özümüzə yaxşı şərait quracağıq”,- demişdi. Lakin iki gün sonra onun cansız bədəni son dəfə öz evinə üçrəngli bayrağa bükülmüş halda gətirildi. Tanrı hər bir insanın alın yazısına möhür vurur. Bu möhür müqəddəs möhürdür. Elə buna görə də, “Yazıya pozu yoxdur”,-deyirlər. Və bu dünyada heç kəs tale yazısından qaça bilmir. İsmayıl Qurbanovunda taleyinə Vətən yolunda şəhid olmaq yazılıbmış. İsmayıl müharibə başlayan andan özünü önə atır. Komandirinə hər an hazır olduğunu, döyüşmək istədiyini deyir və komandirinin bir əmri ilə önə atılır.

*Şəhidlər ana yurdu tutdular*
*candan baha,*
*Şəhidlər yollar açdı qaranlıqdan*
*sabaha.*

(Ardı 7-ci səhifədə).

# Ölümün insanlığa hədiyyəsi

**Vətən sevgisi**

Gözəl bir həyatdır hər insan ömrü...

Hər ömür bir dastan, bir canlı əsər. Hər əsər bir ömrün tarixi salnaməsi. Hər salnamə bir insan ömrünün faktiki xronologiyası. Hər xronologiya isə həyatda ətraf aləmin qan yaddaşına iz salmaz. Həyatda insanların yaddaşında özünə “ömür” qazanan isə vətən məhəbbətindən, insanlıq hisslərindən “qidalanan” ömürlərdir.

İnsanın ömründə yaş üstünə yaş gəldikcə həyat təcrübəsi artar, yeni həyatın hər üzünün canlı şahidi olar. Qəhrəmanlıq, fərqli ömür yaşamaq əvvəlki həyat tərzinə nisbətdə “gəncləşib”, bu günkü zamanın gəncləri düşüncə tərzinə görə yaşından böyük olub, həyat tərzi onları vaxtından tez yaşlı insan psixologiyasına sürükləyib. Bu, 2020-ci ilin iyul və sentyabr ayındaki hadisələrdə daha bariz şəkildə özünü sübut etdi.

Yaşadığımız ölkənin 30 ilə yaxın bir dövrdə “məğlub ölkə” kimi tanınması, torpaqlarının 20 faizinin yağı tapdağında “əsir” olması, 20 faiz sayılan ərazilərin yağmalanması, dilbər guşələrimizin xarabazara çevrilməsi, bu günki gəncliyin, vətən sevgisi ilə yaşayanların ağrısı, acısı idi. Məcburi köçkün, ələlxüsus qaçqın sözünün acısı bu adı daşıyanların qəlb ağrısı, göz “təzyiqi” idi. Bu adın ağırlığı təkcə onların deyil, hər bir azərbaycanlı gəncin düşüncə tərzinə təsir edirdi. Elə buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vətənin azadlığı uğrunda çağırışına gənclərimiz böyük coşqu ilə səs verdilər. Yaşından asılı olmayaraq, könüllülərin sayı ağlasığmaz dərəcədə hər gün artdı. Hər kəs özünə ən müqəddəs borc bilərək vətənin müdafiəsinə qalxdı.

**Halal zəhmətin çörəyi**

Öz əllərinin qabarı, alnının təri ilə halal qazananların çörəyi daha dadlı, şirin olar. Bu çörək insanların “həzmində”də, gücündə, gözəlliyində, həyata baxışında fərqli olar; insanların əqidəsində tanınar, ürəyinin arzularında, gözəlliyə baxışında, sözlərinin deyilişində, pisliklərə nifrətinin qayəsi olar. Çətinliklərə, dərdlərə Allah güvəni, ümidpənahı, həyatın daşlar kimi soyuq üzünə ürəyinin hərarəti ilə həyat verər-zəhmətdən mayası olan halal çörək!

Zəhmətlə qazanılan çörəyi özünə yaşam qidası seçənlərin düşüncələrində:

*Sinəmi bir daşa söykəsəm əgər,*
*O da insanlaşıb, kövrəlməliydi...*–misraları əbədi yer alar. Bax, belə gənclərin məhz bu qəbildən olan insanların emosional baxışları, qranit dözümü, vətən sevgisinin şəlalə coşqusu zəfər qazandırdı orudumuza! Həm də 44 günlük bir vaxt bölgüsündə!




Məhz dövlətinin gücünə, ordusunun yenilməzliyinə inamı, düşmən tapdağında olan torpaqların harayına diqqəti, şəhidlərin narahat ruhlarına kişi sözünün, vədinin qətiyyəti, qisas alovunun gücü qələbəyə səslədi onları! Güclü silahlara rəğmən dişi ilə, dırnağı ilə, yalun əli ilə qisas aldı vətən oğulları! Onlar can hayında da deyil, verdiyi kişi sözünün bütövlüyünü düşündülər. Məhz ona görə Şuşa döyüşlərində Şuşanı qazandılar. Bu halal çörəyin gücü idi...

*Çiçəklənən duyğumuz gündüzündə*
*Gecəsində gülablanar yuxumuz...*

**M. Araz.**

Çox gəncdir Turanımız, üzünün hər cizgisində bir arzu, bir istək gizlənib. Baxışları günəşin şəfəqlərindən yaranıb sanki, istilik dolu, işıq dolu... O baxışların işığında isə qırıq xətlərin cizgiləri apaydın hiss olunur, duyulur və insanı dərk etmək bacarığı olan hər kəs tərəfindən oxunur, görünür. O qədər şirinlik var ki simasında, ilk baxışdan ən acı xatirələri belə “kölgələndirir”, insanı neqativlikdən uzaqlaşdırır. Duruşunda qürur ona güc versə də, gəzişində bir yaşlılıq görüntüsü, bir ahıllıq abi-havası insanların baxışında təzad yaradır. Bu nədir?!- Bu insanlığın işartısı, igidliyin qayəsinin təzahür nümunəsidir. Döşü medallı, qoltuq ağacına söykənərək vətənpərvərlik tədbirlərində iştirak edən bu gənci sovetlər dönəmindəki 5 illik müharibə veteranlarına bənzədirdim hər görəndə. Fərq və fakt o idi ki, Turan bu görkəmi məhz 44 günlük müharibədə qazanmışdı, həm də əsl qazilərə məxsus bir mülayimlik, mələklik işığı var idi simasında! Gülablanan gecə yuxularının qoxusu var idi səsində, nəfəsində...

**Tanıyırsınızmı?...**

Turan Xudat oğlu Muradov-2001-ci ildə iyun ayının 6-da Vəndam qəsəbəsində, I Qarabağ Müharibəsinin qazisi Xudat Muradovun ailəsində dünyaya göz açıb. Qazi, döyüşçü ailəsinin adı məhz onun tərcümeyihalının ən yüksək titulu deyilmi?! Vətənə sevgi, qorxmazlıq, qələbəyə inam hissi məhz qazi övladlarında tükənməz olur.

Şəhid adını daşıyan bir məktəbə qədəm qoymuş Turan-Vəndam qəsəbəsində Eldəniz Mehdiyev adına 1 saylı tam orta məktəbə. Qəlbinin arzularını reallaşdırmaq məqsədilə orta məktəbin tam təhsilini 2015-ci ildə Şamaxı şəhərində 6 saylı tam orta məktəbdə davam etdirmiş və məzun olmuşdur. Ərəb dili üzrə özəl kurs təhsili almışdır.

2019-cu ilin iyul ayının 5-də həqiqi hərbi xidmətə çağırılmışdır. 3 ay Ağcəbədi rayonunda “N” saylı hərbi hissədə xidmət etmişdir. Füzulidə isə 3 ay xidmət etdikdən sonra ön xəttə yollanmışdır.

Müharibənin labüdlüyünü daima düşünən Turan Muradov 2020-ci ilin iyul hadisələrindən sonra müharibənin zəruriliyini daha aydın dərk etdi. İyul hadisələrində general Polad Həşimovun ölümü azərbaycanlı vətənpərvərlər kimi, həm də bir eloğlu kimi onun da qəlbində düşmənə qarşı qisas alovunu gücləndirdi.

**Görkəm ürəyi əks etdirməz**

İlk baxışda çox gənc görünən Turanın əslində o qədər böyük ürəyi var idi ki... güclü arzu toplusunu gəzdirəcək ürəyi var Turanın. İlk arzusu zəfər qazanmaq, azad vətənin məğrur vətəndaşı olmaq. Elə bu arzu onun yoluna yaşıl işıq oldu. 2020-ci ilin sentyabr ayının 21-dən müharibə - qisas müharibəsinin başlanacağının təsdiqini aydın hiss etdi Turan. Və vətənpərvər bir oğul kimi düşmənlə qələbə əzmi ilə döyüşə başladı. Olduğu hər bölgədə yalnız torpaqlarımızın azadlığını düşündü....

Oktyabrın 25-də Füzuli-Xocavənd uğrunda gedən döyüşlərdə 120-lik minomyot mərmisinin yaxınlığına düşməsi nəticəsində ağır yaralandı. Bədəninin müxtəlif yerlərində çoxlu qəlpə yarası aldı. Dəfələrlə hərbi qospitallarda müayinə olundu, müalicə aldı. Qəlpələrlə baş-başa qaldı... Zəfər qazanıldıqdan sonra təkrar müalicəsini Türkiyədə aldı. əməliyyat olundu, qəlpələrin bir qismi bədənindən təmizlənsə də, həkimlər onu tam təmizləyə bilmədilər. Sinir uclarındakı qəlpələr Turanın bədənində “əbədi sakinə” çevrildi: bu qaziliyin ən bariz nümunəsi idi.

Turan keçən il təhsilini davam etdirmək üçün ali məktəbə imtahan verdi, lakin qəbul ola bilmədi. Sarsıldı- axı sağlamlığı yerində olsaydı, daha güclü hazırlaşardı və tələbə adı qazanardı... Ancaq özünə inam hissi bu balamızda daha güclüdür. Buna görə də onun bu arzusuna çatacağına inanırıq!

Ancaq səhhətinin daha güclü müalicə olunması və sağlamlığına qovuşması Turanın ilkin arzusu olmalı və bu amal uğrunda bütün gücünü səfərbər etməlidir.

Əlbəttə buna onun ətrafı-insanlar da stimul verməlidir. Turanın qəlbindəki arzuların reallaşması hər bir vətən övladının da ümdə arzusu olmalıdır. Hərtərəfli dəstək olmalıyıq ki Turan balamıza, qəlpələrlə baş-başa olmasın.

**Təltiflərə baxdıqca**

Şəkillərinə hər an baxıram. Özü ilə həyatda bir neçə dəfə rastlaşıb-görüşsəm də, təkrar-təkrar baxıram. Bu istək onun baxışlarındakı doğmalıq hissindən irəli gəlir. Hələ də Türkiyədə yazılan müalicəni davam etdirsə də, bədənindəki qəlpələrin onun orqanizminə etdiyi ziyanı baxdıqca hiss edir və Turanın sağlamlığına qovuşması üçün insanların ona mənəvi dəstək olmasını daha çox arzulayıram. Əgər mənəvi dəstək olunarsa, onun sağlamlıq ehtiyacları daha aydın, bariz şəkildə duyular... Həyatda görüşəndə baxışlarımı gizlədirəm, onun bu görkəminə diqqət kəsilməyim deyə... Şəkillərinə baxanda 5 medalını-“Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” medallarını aydınlığı ilə görürəm. Və hiss edirəm ki, bu medalları ağırlığı onun “qəddinə” təsir edir. Bəlkə buna görə... Yox, yox, şan-şöhrət aludəçisi olmadığına görə şəkil çəkdirəndə bu medalları yaxasina taxmaq istəmirdi... Axı elə insanlar var ki, təltiflər onun igidliyini, insanlığını tam əks etdirə bilmir. Axı o qədər təltifsiz, tərifsiz, ancaq ən uca təltiflər qanına, canına hopmuş, qüruruna cilalanmış ömürlər var ki...

Məhz Turan Muradov kimi... O təltifləri isə yalnız insanlıq və vicdanlıq hissiyyatları, duyumu ilə görmək olar.

Turan 2 bacının tək qardaşı, ana və atasının da ümid simvolu, vətənin güc damlasıdır. Turanın ən böyük titulu “Qazi” adıdır. Qazi şəhidlik zirvəsində ölümün insanlığa hədiyyəsidir. Ölüm ölümlərdən alıb onu bizə hədiyyə etmişsə, biz onu yaşatmalıyıq. Bu Allahın bəxşişidir çünki!...

**BİBİXANIM.**